# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Ərzaq balansının tərtib olunması Qaydası”nın, “Ərzaq balansının tərtibi mexanizminin təkmilləşdirilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi və “Ərzaq balansının tərtib olunması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 20 noyabr tarixli 181 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanının 4.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Ərzaq balansının tərtib olunması Qaydası” təsdiq edilsin (əlavə olunur).
2. “Ərzaq balansının tərtibi mexanizminin təkmilləşdirilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).
3. “Ərzaq balansının tərtib olunması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 20 noyabr tarixli 181 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 11, maddə 940; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955) ləğv edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 mart 2021-ci il

№ 80

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2021-ci il 30 mart
tarixli 80 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Ərzaq balansının tərtib olunması

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinin 1-ci hissəsinə uyğun olaraq hazırlanmışdır və ərzaq balansının tərtib olunması prosedurunu tənzimləyir.

1.2. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. ərzaq balansı - ərzaq və xammal kimi istifadə edilən yeyinti məhsullarının istehsalını, istehlakını və dövriyyəsini özündə əks etdirən məlumat toplusudur. Ərzaq balansı hesabat ilinin, cari ilin gözlənilən və növbəti ilin proqnoz göstəricilərindən ibarət cədvəl formasında tərtib olunur;

1.2.2. ərzaq balansının hesabat ili göstəriciləri - son bitmiş təqvim ili üzrə ərzaq və xammal kimi istifadə edilən yeyinti məhsullarının istehsalını, istehlakını və dövriyyəsini əks etdirən statistik məlumatlardır;

1.2.3. ərzaq balansının cari ilin gözlənilən və növbəti ilin proqnoz göstəriciləri - cari və növbəti təqvim illəri üzrə ərzaq və xammal kimi istifadə edilən yeyinti məhsullarının istehsalını, istehlakını və dövriyyəsini əks etdirən proqnoz məlumatlardır.

1.3. Ərzaq balansının hesabat ili üzrə göstəricilərinin hesablanması Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış metodologiya əsasında həyata keçirilir.

1.4. Ərzaq balansının cari il üzrə gözlənilən və növbəti il üçün proqnoz göstəriciləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanır.

## 2. Ərzaq balansının tərkibinə daxil olan məhsullar

2.1. Ərzaq balansının hesabat ili üçün göstəriciləri aşağıdakı məhsul növləri üzrə tərtib olunur:

2.1.1. buğda;
2.1.2. sair dənlilər;
2.1.3. dənli paxlalılar;
2.1.4. un;
2.1.5. çörək və çörək məmulatları;
2.1.6. düyü;
2.1.7. yarmalar;
2.1.8. makaron məmulatları;
2.1.9. kartof;
2.1.10. soğan;
2.1.11. sair tərəvəzlər;
2.1.12. bostan məhsulları;
2.1.13. meyvə və giləmeyvələr;
2.1.14. ət və ət məhsulları;
2.1.15. süd və süd məhsulları;
2.1.16. pendir;
2.1.17. yumurta;
2.1.18. balıq və balıq məhsulları;
2.1.19. bitki yağları;
2.1.20. marqarin;
2.1.21. kərə yağı;
2.1.22. meyvə və tərəvəz konservləri;
2.1.23. şəkər;
2.1.24. qənnadı məmulatları;
2.1.25. çay;
2.1.26. duz.

2.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən ərzaq balansının cari il üzrə gözlənilən və növbəti il üçün proqnoz göstəriciləri aşağıdakı məhsul növləri üzrə aparılır:

2.2.1. buğda;
2.2.2. sair dənlilər;
2.2.3. un;
2.2.4. kartof;
2.2.5. soğan;
2.2.6. meyvə və giləmeyvələr;

2.2.7. ət və ət məhsulları;
2.2.8. quş əti və məhsulları;
2.2.9. süd və süd məhsulları;
2.2.10. yumurta.

## 3. Ərzaq balansının tərtib olunması ilə bağlı məlumatların toplanılması

3.1. Aidiyyəti orqanlar ərzaq balansının hesabat ili üzrə göstəricilərinin tərtibi üçün müvafiq illik məlumatları aşağıdakı müddətlərdən gec olmayaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim edirlər:

3.1.1. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi - dövlət ərzaq ehtiyatlarına dair məlumatları yanvarın 15-dək;

3.1.2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi - “Elektron Kənd Təsərrüfatı” İnformasiya Sistemi”ndə qeydiyyatdan keçmiş təsərrüfat subyektlərinin buğda istehsalı barədə, habelə istixana, taxıl elevatorları və soyuducu anbarlar üzrə məhsul satışı, qalıqları və itkiləri barədə mövcud məlumatları yanvarın 30-dək;

3.1.3. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi - müvafiq ərzaq məhsullarının (o cümlədən buğdanın siniflər üzrə) idxal-ixracı barədə məlumatları yanvarın 15-dək;

3.1.4. yerli icra hakimiyyəti orqanları - bələdiyyələrin məlumatlarını nəzərə almaqla, kənd təsərrüfatı məhsullarının istehsalına dair məlumatları yanvarın 20-dək.

3.2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi rəsmi statistika hesabatları ilə əhatə olunması mümkün olmayan göstəricilərin əldə edilməsi məqsədilə xüsusi sorğular vasitəsilə əldə edilmiş məlumatları martın 15-dək ümumiləşdirir.

3.3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ərzaq balansının hesabat ili üçün tərtib olunmuş ilkin göstəricilərini fevralın 10-dək, yekun göstəriciləri isə iyulun 15-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edir.

3.4. Aidiyyəti orqanlar bu Qaydanın 2.3-cü bəndinə uyğun olaraq ərzaq balansının cari il üzrə gözlənilən və növbəti il üçün proqnoz göstəricilərinin tərtibi üçün aşağıdakı məlumatları sentyabr ayının 20-dən gec olmayaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edirlər:

3.4.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi - kənd təsərrüfatı məhsullarının istehsalına dair cari ilin gözlənilən və

növbəti il üçün proqnoz göstəriciləri və “Elektron Kənd Təsərrüfatı” İnformasiya Sistemi”ndə qeydiyyatdan keçmiş taxıl elevatorları və soyuducu anbarlarda cari ilin 6 ayının yekunları üzrə məhsul qalıqları və itkiləri barədə mövcud məlumatları;

3.4.2. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi - dövlət ərzaq ehtiyatlarına dair cari ilin 8 ayının yekunları üzrə məlumatları və cari ilin sonuna gözlənilən və növbəti il üçün proqnoz göstəriciləri;

3.4.3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi - ərzaq məhsullarının istehsalına dair cari ilin 8 ayının yekunları üzrə məlumatları;

3.4.4. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi - ərzaq məhsullarının (o cümlədən buğdanın siniflər üzrə) idxal-ixracı barədə cari ilin 8 ayının yekunları üzrə məlumatları;

3.4.5. ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması, idxalı, ixracı və satışı sahəsində fəaliyyət göstərən subyektlər və əlaqəli dövlət qurumları – Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin sorğu məktubuna uyğun olaraq müvafiq məlumatlarını.

3.5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qaydanın 3.3-cü və 3.4-cü bəndlərinə uyğun olaraq təqdim olunmuş məlumatlar əsasında hazırlanan və hesabat ili, cari il üzrə gözlənilən və növbəti il üçün proqnoz göstəricilərini özündə əks etdirən ərzaq balansını oktyabr ayının 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

3.6. Ərzaq balanslarının tərtibi zamanı dövlət sirri təşkil edən məlumatların mühafizəsi, məxfiləşdirilməsi, istifadə edilməsi və digər məsələlər qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 mart tarixli 80 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

## Ərzaq balansının tərtibi mexanizminin təkmilləşdirilməsi ilə bağlı

## TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcraçılar | İcra müddəti |
|---|---|---|---|
| 1. | Mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla ərzaq balansının hesabat ili üzrə göstəricilərinin hesablanması metodologiyasının təkmilləşdirilməsi | Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi | 2021 |
| 2. | İstehsal, idxal və ixrac olunan buğdanın təyinatı və (və ya) siniflər üzrə bölgüsü barədə məlumatları əldə etmək məqsədilə mövcud təsnifat sistemlərinin təkmilləşdirilməsi | Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi | 2021 |
| 3. | Buğdanın istehsalı və anbar qalıqları barədə “Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi”ndə mövcud olan məlumatların İqtisadiyyat Nazirliyinə, Fövqəladə Hallar Nazirliyinə, Dövlət Statistika Komitəsinə, Qida Təhlükəsizliyi Agentliyinə təqdim edilməsi | Kənd Təsərrüfatı Nazirliyi | hər il yanvar ayının 30-dək |
| 4. | Kənd inzibati ərazi dairələri üçün təsərrüfatbaşına uçot kitablarında ailə kəndli və ev təsərrüfatları üzrə məlumatların vaxtında və keyfiyyətlə doldurulmasının təmin olunması üçün nəzarət tədbirlərinin görülməsi | Yerli icra hakimiyyəti orqanları, Dövlət Statistika Komitəsi | 2021-ci ildən başlayaraq |